# Qələbə səninlədir, Azərbaycan Ordusu!

***Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-də başladığı əks-hücum əməliyyatları öz miqyasına və nəticələrinə görə hərb tariximizin qızıl səhifələridir. Bir aydan artıq vaxt keçməsinə baxmayaraq, müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə böyük bir tarix yazır. Əsgərlərimizdə olan ruh yüksəkliyi, qətiyyət, xalqımızın öz ordusuna dəstəyi ən yüksək səviyyədədir. Bunun nəticəsidir ki, uzun illərdir işğal altında olan torpaqlarımız bir-birinin ardınca azad edilir.***




## Azərbaycan Ordusu dünyanın ən güclü silahlı qüvvələrindən olduğunu təsdiqləyir



Bu uğurlara gəlib çıxmağımız asanlıqla olmayıb. Uzun illərdir ki, dövlətimiz tərəfindən ordu quruculuğuna diqqət və qayğı göstərilir, peşəkar hərbi kadrların hazırlanması özünün ən yüksək mərhələsindədir. Bundan əlavə, ən müasir silah sistemləri ilə təminat da günün reallığıdır.

Təsadüfi deyildir ki, bu gün Azərbaycan Ordusu beynəlxalq təşkilatların hesabatlarında dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu gün bütün dünya mediası, hərbi ekspertlər Azərbaycan Ordusunun qələbələrindən yazır. Şübhəsiz ki, ordumuzun bu səviyyəyə qalxmasına illər sərf olunub. Bu da dövlət başçımızın hakimiyyətdə olduğu son dövrdə müdafiə sənayesinə, hərbi qüvvələrin inkişafına dəstəyi daim nəzarətində saxlamasının göstəricisidir. Bundan əlavə, dövlət başçısı tərəfindən uzun illər ərzində sistemli şəkildə həyata keçirilən hərbi, siyasi, iqtisadi və geosiyasi sahədə uğurlar da bu qələbələrin qazanılmasında müstəsna rol oynayır. Bütün bu inkişaf telləri bir-biri ilə sıx bağlıdır. Bunun nəticəsidir ki, bu gün hər bir azərbaycanlı qürurverici bir tarixə şahidlik edir.

Biz hər gün Müdafiə Nazirliyinin paylaşdığı videogörüntüləri böyük maraqla izləyirik. Düşmənə məxsus olan texnikaların və şəxsi heyətin məhv edilməsi və ya qənimət kimi ələ keçirilməsi xalqımızda çox böyük ruh yüksəkliyi yaradır. Eyni zamanda, hamımızı düşünməyə vadar edir ki, məhv etdiyimiz və qənimət kimi götürdüyümüz hərbi sursatın dəyəri 2,7 milyard dollardan çoxdur. Ermənistan isə müflis ölkədir, elə bir gəlir qaynağı yoxdur, xarici borcu büdcəsindən azı 5 dəfə çoxdur. Dövlət büdcəsi 2 milyard dollardan azdır, xarici borcu isə 8 milyard dollardan çoxdur. Habelə, COVID-19 xəstəliyinin Ermənistan ərazisində çox sürətli yayılması, iqtisadiyyata artıq qarşısıalınmaz zərbə vurub, belə olan halda bu qədər qiymətli silah Ermənistanda haradandır?

Ali Baş Komandan oktyabrın 7-də CNN-Türk telekanalına müsahibəsində də bu məsələyə toxunaraq bildirdi ki, biz bu silahları pulla alırıq və bu da çox bahalı sistemlərdir. Ermənistan isə bir çox hallarda pulsuz alır. Yəni, hədiyyə kimi, ya da ki, kredit şəklində alır. Amma o kredit kağız üzərində qalır, qaytarılmır. Təbii ki, bu bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, Ermənistanın buna sahib olması müzakirə mövzusu ola bilməzdi və bu münaqişə çoxdan çözülərdi. Çünki Ermənistanın silahlanması – həm də, pulsuz silahlanması onlarda bir əminlik yaratdı ki, bu torpaqları işğal altında əbədi saxlaya bilər. Yəni, fərq bundadır.

Məlum olduğu kimi, sentyabrın 27-dən bəri üç dəfə humanitar atəşkəs elan olundu. Ermənistan hər dəfə bu atəşkəsi kobud şəkildə pozdu. Hətta düşmən azğınlaşaraq, Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə raket zərbələri endirdi. Belə ki, ilk hücum 4 oktyabrda baş vermiş və 1 mülki şəxsin həlak olması, 30-dan çox mülki şəxsin yaralanması ilə nəticələnmişdi. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum idi. İkinci raket hücumu isə 8 oktyabrda baş vermişdir. Üçüncü raket hücumu isə 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs həyatını itirmiş və 40-dan çox insan yaralanmışdır. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələnmişdi. Mülki şəxsləri hədəfə alan dördüncü raket hücumu isə 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla, 16 nəfər həyatını itirmiş, 55 nəfər isə yaralanmışdır. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəymişdir. Döyüş meydanında Azərbaycan Ordusunun qarşısında darmadağın vəziyyətə düşən düşmən bu məğlubiyyətinin əvəzini dinc əhalidən çıxmaq istədi.

Sonuncu dəfə isə Bərdə rayonuna olan raket hücumu Ermənistanın əsl vəhşi simasını bütün dünyaya göstərdi. Bərdəyə hücumda mülki insanlardan 21 nəfər həlak oldu və 70-ə qədər insan yaralandı. Şübhəsiz ki, ordumuz düşmənin bu ləyaqətsizliklərinin cavabını döyüş meydanında artıqlaması ilə verdi.

Ermənistan tərəfi atəşkəsi hər dəfə pozmaqla bu istiqamətdə vasitəçi olan ölkələrə hörmətsizlik edir. Həmin münasibəti Ermənistan bu vaxta qədər BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməməklə də nümayiş etdirib.

Eyni zamanda, məlum qətnamələri qəbul edən, münaqişə ilə bağlı, o cümlədən atəşin dayandırılması istiqamətində təşəbbüslər irəli sürən dövlətlər də bu məsələyə laqeyd yanaşırlar. Hər addımda beynəlxalq hüququn tələblərini kobud şəkildə pozan, müharibə qanunlarını tanımayan bir ölkəni dayandırmaq üçün heç bir səy göstərmirlər. Dəfələrlə deyilib ki, Ermənistan baş nazirinin göstərişi ilə Livandan, Suriyadan ailələr gətirilib və qeyri-qanuni olaraq Qarabağa yerləşdirilir. Lakin buna qarşı heç bir tədbir görülmür. Əksinə, baş nazir bu cəzasızlıq mühitindən sui-istifadə edərək Şuşada inauqurasiya mərasimi keçirdi. Bundan başqa, “Dağlıq Qarabağ parlamenti”nin Xankəndidən Şuşaya köçürülməsi və digər təxribatlar törədirdi.

BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri icra etmədiyinə görə Ermənistana qarşı ciddi sanksiyalar tətbiq etmək hüququ var idi, bu sanksiyaların effektliyini İraqın nümunəsində görmüşdük. Lakin, nədənsə Ermənistanın bu aqressiv davranışının qarşısını almağa heç kəs cəhd etmədi. Belə olan halda isə işğalçı dövlətin cəzalandırılması missiyası və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək vəzifəsi rəşadətli, müzəffər ordumuzun üzərinə düşdü.

Bu, bir həqiqətdir ki, Ermənistanın təcavüzkar əməlləri təkcə regiona yox, eyni zamanda, bütün dünyaya təhdiddir. Regionda baş verən bütün mübaqişələrin yaradıcısı Ermənistandır. Ermənistanın hazırkı siyasi rəhbərliyi öz xələfləri kimi cinayətkardır və işğalçılıq siyasətini yürütməkdə davam edir. Mülki əhalini hədəfə alaraq, beynəlxalq hüququn tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyasının normalarını kobud şəkildə pozur.

Ermənistanın mülki Azərbaycan əhalisini hədəfə alması, Gəncə və Bərdə şəhərlərində, eləcə də digər rayon və şəhərlərimizdə mülki vətəndaşlarımıza raket zərbələri endirməsi, nəticədə içərisində uşaqlar və qadınlar olan insanlarımızın ölməsi heç cür qəbul edilən deyil. Baxmayaraq ki, insan hüquqları sahəsində ixtisaslaşmış təşkilatlar hazırda mülki vətəndaşlarımızın ölümünə reaksiya vermirlər. “Amnesty International” və “Human Rights Watch” təşkilatlarının Ermənistan silahlı qüvvələrinin Bərdəyə qadağan olunmuş kasetli raketlərlə zərbələr endirməsini sanki görməzlikdən gəlir, bu təşkilatların hansısa maraqlara xidmət etdiyini artıq heç kəs inkar etmir.

Hazırda Türkiyə, İran, Rusiya və Azərbaycan arasında həm çoxtərəfli, həm də ikitərəfli formatlarda fəal əməkdaşlıq imkanları yaranıb. Bu, iqtisadi, nəqliyyat, geosiyasi sahədə, habelə regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından olduqca önəmlidir. Lakin Ermənistan öz işğalçılıq siyasətini davam etdirərək, təxribatlar törətməklə buna mane olmağa çalışır.

Bu gün Azərbaycan xalqı ilə yanaşı, bütün sülhsevər dünya ictimaiyyəti ədalətin bərqərar olunacağını – Ermənistanın təcavüzünə son qoyulacağı, Azərbaycanın tarixi torpaqlarının azad ediləcəyi, ərazi bütövlüyümüzün bərpa olunacağı günü gözləyir. Azərbaycan həmişə müxtəlif xalqların, millətlərin və dinlərin birgə yaşadığı, multikultural dəyərləri yüksək qiymətləndirən tolerant bir ölkə kimi tanınıb. Multikulturalizm Azərbaycanda dövlət siyasəti səviyyəsində aparılıb. Bu gün Azərbaycan Ordusu sıralarında döyüşən, qəhrəmanlıq göstərən, şəhidlik zirvəsinə yüksələn, qazi olan müxtəlif xalqların nümayəndələrinin olması da məhz bunu sübut edir. Elə təkcə bu fakt onu deməyə əsas verir ki, Azərbaycan bütün xalqlara öz qoynunu açan məmləkətdir və xalqımız heç zaman milli, irqi ayrı-seçkiliyə yol verməyib. Bu həm də onu sübut edir ki, gələcəkdə Qarabağda xalqımızla yanaşı başqa millətlərin nümayəndələrinin də yaşamaları üçün heç bir məhdudiyyət yoxdur. Məlumdur ki, erməni xalqı Azərbaycan torpaqlarına Gülüstan və Türkmənçay müqavilələrinin imzalanmasından sonra köçürülməyə başlayıb və həmin ərazidə yaşamaları son 200 ili əhatə edir. Onlar yenidən xalqımızla mehriban şəraitdə yaşamaq istəsələr də bunun üçün dövlət tərəfindən bütün şərait yaradılacaq. Lakin əsas odur ki, hər bir Azərbaycan vətəndaşı kimi onlar da dövlətimizin qanun-qaydalarına riayət etsinlər.

Artıq işğaldan azad edilmiş ərazilərdə xüsusi idarəetmənin formalaşdırılması, vətəndaşlarımızın öz tarixi torpaqlarına geri qayıtmasılar, tarixi və ayrılmaz diyarımız Qarabağı bərpa edərək onu Yer üzündə ən gözəl və həyat üçün rahat guşələrdən birinə çevirmək dövlətimizin müqəddəs amalıdır.

***Adil ƏLİYEV,***
***Milli Məclis sədrinin müavini***